*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 1* *ISSN 2663-4414*
*Səhifə: 25-43* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.1.25*

# MƏHTİMQULU FƏRAQİNİN POEMA YARADICILIĞI

**İsmixan Osmanlı**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: iosmanli59@yahoo.com

**Xülasə.** XVIII-XIX əsrlər klassik türkmən ədəbiyyatının görkəmli nümayəndəsi Məhtimqulu Fəraqi Şərq ədəbiyyatının bir çox janrlarında yazdığı lirik şeirləri ilə dünya şöhrəti qazanmış filosof-şairdir. Bu günə qədər onun qələminə məxsus on üç poeması da məlumdur. Üç poemada onun adının çəkilməməsi və hər birinin yeganə əlyazma nüsxəsinin olması səbəbindən onların şairə məxsusluğu hələlik dəqiqləşdirilməmişdir.
Bu məqalədə şairin mövzusunu türk və Şərq əfsanə və rəvayətlərindən, türkmən-türk folklorundan, məşhur türk və Şərq şairlərinin əsərlərindən, Quran qissə-ayələrindən götürdüyü on poeması haqqında ətraflı məlumat verilir.
**Açar sözlər:** Məhtimqulu Fəraqi, klassik ədəbiyyat, poema, əfsanə, türk və Şərq ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 01.03.2023; qəbul edilib – 17.03.2023

# POEM CREATION OF MAHTYMGULY PYRAGI

**Ismikhan Osmanli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: iosmanli59@yahoo.com

**Abstract.** An outstanding representative of classical Turkmen literature of the 18th-19th centuries Mahtymguly Pyragi, is a philosopher-poet who has gained world fame with his lyrical poems written in many genres of oriental literature. Thirteen of his poems are known to this day. Due to the absence of his name in the three poems and the existence of only one manuscript copy of each, their belonging to the poet has not yet been determined.
This article provides detailed information about the ten poems of the poet, whose themes are taken from Turkish and Eastern legends and narratives, Turkmen-Turkish folklore, works of famous Turkish and Eastern poets, and verses of the Guran.
**Keywords:** Mahtymguly Pyragi, classical literature, poems, legends, Turkish and Eastern literature

**Article history:** received − 01.03.2023; accepted − 17.03.2023

## Giriş / *Introduction*

Mütəfəkkir türkmən şairi Məhtimqulu Fəraqi (1724-1807) dünya ədəbiyyatı korifeyləri sırasında adı hörmətlə çəkilən ümumtürk ədəbiyyatının görkəmli simalarındandır. Ədəbi fəaliyyəti ilə dövrünün xalqla bağlı mütərəqqi şəxsiyyətlərindən biri olan Məhtimqulu türkmən ədəbiyyatının milli

özünüdərk və müstəqillik ideyaları aşılayan yeni istiqamətini yaradan dərin və nikbin duyğulu qüdrətli bir şair, klassik türkmən şeirinin ölməz nümunələrini yaradan sənətkarlardandır. Onun öz təravətini heç bir zaman itirməyən lirik növün müxtəlif janrlarında yazdığı məzmun zənginliyi, ideya dərinliyi və sənətkarlıq vüsəti ilə xalqın ruhunu, zövqünü oxşayan lirik poeziyası türkmən klassik ədəbiyyatının ən gözəl nümunələrindəndir. Məhtimqulu, eyni zamanda epik janrın bir neçə gözəl nümunəsini yaradan şairlərdən biri kimi də şöhrət tapmışdır. O, bütün yaradıcılığı boyu qələmini epik poeziyanın poema janrında da sınamış və qiymətli ədəbi nümunələr yaratmışdır.

Məhtimqulu özündən əvvəlki ədəbiyyatın təcrübəsinə əsaslanaraq, ənənəvi süjetlərdən istifadə edib, müxtəlif məzmunlu kiçikhəcmli poemalar yazmışdır. Çox təəssüflər olsun ki, dünya məhtimquluşünaslığında bu günə qədər şairin, əsasən, lirik yaradıcılığı daim diqqət mərkəzində olmuş, şeirləri daha çox tədqiq və nəşr olunmuşdur. Türkmənistanda 1926-cı ildə ilk dəfə əsərləri kitab halında nəşr ediləndən uzun müddət sonra belə, onun lirik yaradıcılığından söhbət açılmış, epik yaradıcılığı haqqından bəhs edilməmişdir. Düzdür, onun epik yaradıcılığı da müəyyən vaxtlarda tədqiqata cəlb olunmuşdur. Lakin bu tədqiqatlar fraqment şəklində olmuş, lirikası ilə müqayisədə epik yaradıcılığı çox az öyrənilib, bir neçə məqalə, xüsusən tanınmış türkmən alimi, professor Annaqurban Aşırovun tədqiqatları istisna olmaqla, indiyə qədər onun epik yaradıcılığını bütövlükdə əhatə edən xüsusi tədqiqat işi yoxdur, poemaları kompleks halda tədqiq olunmamış və onlar haqqında ayrıca monoqrafiya da yazılmamışdır. Hətta Türkmənistanın özündə bu günə kimi böyük şairin poemaları ayrıca kitab halında nəşr olunmamışdır.

## Əsas hissə / *Main Part*

Türkmən alimləri arasında Məhtimqulunun poema yaradıcılığı haqqında ilk dəfə A.Gürgənli məlumat vermişdir. O, 1939-cu ildə Məhtimqulunun həyat və yaradıcılığına həsr etdiyi məqaləsində şairin əlyazmalarından bəhs edərkən, həmin dövrə qədər onun əldə olan şeir və poemalarının sayını göstərərək yazmışdır: “Bu əlyazmalarda Məhtimqulunun 300-dən çox şeiri və 3 poeması vardır” (Gürgenli, 1939, s. 176). Həmin dövrdə Məhtimqulunun ədəbi irsinin az bir qismi toplanmışdı və ona görə də A.Gürgənli şairin üç poemasının olduğunu bildirmişdi. Görünür, elə bu səbəbdən, müəllif 1948-ci ildə Moskvada nəşr olunmuş “Məhtimqulu” adlı kitaba yazdığı və sonradan Məhtimqulunun anadan olmasının 225 illiyi ilə əlaqədar olaraq nəşr edilmiş “Məhtimqulu” adlı topluya daxil edilmiş “Məhtimqulu (Fəraqi)” adlı məqaləsində şairin 21-22 min misraya qədər şeirinin əldə edildiyini göstərsə də, onun poemaları haqqında isə “Məhtimqulunun ölçüsünə görə o qədər də böyük olmayan və yaradıcılığı üçün az xarakterik olan yalnız bir neçə poeması məlumdur”, – deyə ümumi sözlərlə kifayətlənmişdir (Скосырев, 1960, стр. 142).

Sonrakı illərdə Məhtimqulunun əsərlərinin toplanması və nəşr edilməsi sahəsində türkmən alimləri böyük işlər görmüşdürlər. Elə bunun nəticəsində də onlar Məhtimqulunun çoxlu sayda şeirlərini və bir neçə poemasını toplamağa nail olmuşdurlar.

Məhtimqulu Fəraqinin yaradıcılığı nəinki türkmən alimləri, həmçinin rus alimləri tərəfindən də geniş araşdırılmışdır. Həmin illərdə rus ədəbiyyatşünaslığında şairin poemaları haqqında ilk dəfə türkmən ədəbiyyatının tanınmış tədqiqatçılarından olan Pyotr Skosıryev onun yaradıcılığından bəhs edərkən, baxşıların yaddaşında və pərakəndə şəkildə yazılarda onun “bir neçə poeması və çoxlu sayda kiçik şeirləri” saxlanıldığını bildirmişdir. Tədqiqatçı şairin poemaları haqqında ətraflı bəhs etməmiş, yalnız onun poeması olduğu faktını göstərməklə kifayətlənmişdir (Скосырев, 1945, стр. 23).

Məhtimqulu Fəraqinin ədəbi irsinin toplanması, nəşr edilməsi və tədqiqi sahəsində görkəmli türkmən ədəbiyyatşünas alimi, akademik B.A.Qarrıyevin böyük xidmətləri vardır. Şairin həyat və yaradıcılığı haqqında “Məhtimqulu” adlı ilk sanballı elmi monoqrafiyanın müəllifi də B.A.Qarrıyevdir. Alim həmin monoqrafiyasında Məhtimqulu Fəraqinin həyat və yaradıcılığından geniş bəhs etmişdir. Həmin dövrdə Məhtimqulunun hesab edilən poemaların bir neçəsinin hələ də həqiqətən onun olduğu tam müəyyənləşməmişdi. Ona görə də akademik B.A.Qarrıyev şairin ilk dəfə “Kəsik baş” (“Çakır kelle”), “Ağ it” (“Ak it”), “Cühud oğlan” (“Cohit oqlan”) adlı poemalarının yalnız adlarını çəkmiş, lakin “Göyərçin” (“Kepderi” – “Kəfdər”), “Adlı dostlar” (“Atlı yaranlar”), “Və’z” (“Vaqız”) adlı

poemalarının isə ideya-bədii xüsusiyyətləri barəsində qısa da olsa məlumat vermişdir (Qarrıyev, 1975, ss. 143-144). Akademik B.A.Qarrıyevdən sonra Q.Nəzərov "Türkdilli əlyazmaların kataloqu" adlı kitabında Məhtimqulu Fəraqinin Əlyazmalar Fondunda saxlanılan poemalarının ideya-bədii xüsusiyyətləri haqqında ətraflı bəhs etmişdir (Nazarov, 1980, s. 69).

Məhtimqulu Fəraqinin poema yaradıcılığı barəsində ən müfəssəl məlumatı tanınmış türkmən ədəbiyyatşünas alimi, professor Annaqurban Aşırov vermişdir. O, 1983-cü ildə şairin poema yaradıcılığına "Məhtimqulunun poemaları" adlı irihəcmli bir məqalə həsr etmişdir (Aşırov, 1983, ss. 29-35). Məhtimqulunun epik yaradıcılığının araşdırılması sahəsində irəliyə doğru atılmış ilk ciddi addım olan və xüsusi maraq doğuran həmin məqaləsində alim şairin poemalarının tədqiq tarixini geniş araşdırmışdır. Bundan sonra, 1990-cı ildə professor A.Aşırov Aşqabatda rus dilində nəşr etdirdiyi "XVIII əsr türkmən poemaları" adlı monoqrafiyasında da Məhtimqulunun epik yaradıcılığına böyük yer vermişdir. Həmin monoqrafiyasında şairin "Kepderi", "Atlı yaranlar", "Vaqız", "Maqşarnama", "Ak it", "Çakır kelle", "Cohit oqlan", "Azqın işan", "Qara yer", "Marı şah-cahan" adlı on poemasının adını çəkmişdir. Professor A.Aşırov həmin məqaləsində olduğu kimi, bu monoqrafiyasında da şairə aid edilən poemaların müəllifinin Məhtimqulu olduğu dəqiq olan və müəllifinin Məhtimqulu olduğu dəqiqləşdirilməyən kimi iki yerə bölmüşdür. Birinci qrupa – "Atlı yaranlar", "Kepderi", "Vaqız", "Maqşarnama", ikinci qrupa – "Çakır kelle", "Ak it", "Cohit oqlan", "Azqın işan", "Qara yer", "Marı şah-cahan" adlı poemaları daxil etmişdir (Aşırov, 1983, s. 31), (Аширов, 1990, стр. 73). Həmin dövrdə müəllifin belə bir bölgü etməsinin də səbəbi vardı. Alimin özünün göstərdiyi kimi, "Vaqız", "Maqşarnama" və "Kepderi" adlı poemalarda şairin adı göstərilsə də, digər poemalarda onun adı çəkilmir. Həmçinin həmin poemaların o dövrdə yalnız bir əlyazma nüsxəsi məlum idi və onların müəllifinin kimliyini müəyyən etmək çətin idi (Аширов, 1990, стр. 73). Lakin son illərdə istər türkmən ədəbiyyatşünaslığında, istərsə də xarici ölkə ədəbiyyatşünaslığında həmin poemaların hamısının müəllifinin Məhtimqulu olduğu təsdiq edilmişdir. Həmin poemaların bəzisi şairin anadan olmasının 290-cı ildönümü münasibətilə Aşqabatda nəşr edilən ikicildliyinə, həm də Türkiyə və Azərbaycanda nəşr edilən "Seçilmiş əsərləri"nə daxil edilibdir.

Məhtimqulu Fəraqinin poemaları onun bədii mirası içərisində azlıq təşkil edir və son dəqiqləşdirməyə görə, onların sayı on üçdür. Onlar şairin yaradıcılığı üçün aparıcı təmayül sayılmasalar da, şairin özünün dünyagörüşünün qiymətləndirilməsi və o dövrdəki türkmən ədəbiyyatının istiqamətini müəyyən etmək cəhətdən çox əhəmiyyətlidirlər. Professor A.Aşırov göstərir ki, orta əsr türkmən ədəbiyyatında didaktik əsərlərlə yanaşı, lirik-romantik, lirik-qəhrəmanlıq, sosial-siyasi, dini-fəlsəfi və tarixi-bioqrafik məzmunlu əsərlər yaradılmışdır. XVIII-XIX əsrlərdə isə ədəbiyyatda həmin istiqamətlər saxlanılsa da, dini-fəlsəfi məzmunlu əsərlər üstünlük təşkil etmişdir (Аширов, 1990, стр. 35). Həmin dövrdə yaşayıb-yaratmış Məhtimqulu Fəraqinin poemaları da mövzu və süjet baxımından rəngarəngdir. Onun "Azqın işan" poeması ictimai-siyasi məzmunlu, "Çakır kelle", "Vaqız", "Kepderi", "Maqşarnama", "Ak it", "Cohit oqlan", "Qara yer" isə dini-fəlsəfi məzmunludur.

Məhtimqulu Fəraqi, şeirlərində olduğu kimi, kiçikhəcmli mənzum əsərlərində də özündən əvvəl yazıb-yaratmış şairlərin yaxşı təcrübələrindən faydalanmış və qiymətli mənzum əsərlər yazmışdır. Bu mənada Məhtimqulu yaradıcılığının bütövlükdə sənətkarlıq məziyyətlərini səciyyələndirən "Can içində" və "İçində" adlı alleqorik səpkidə yazılmış poemaları onun mənzum əsərləri içərisində xüsusi yer tutur. Sanki bir-birinin davamı olan bu poemaların qəhrəmanları quşlardır. Heç şübhəsiz, Məhtimqulu şair kimi püxtələşdiyi bir dövrdə qələmə aldığı bu əsərlərini özündən əvvəl bu mövzuda yazmış orta əsrin məşhur sufi fars şairi və mütəsəvvüfü Şeyx Fəridəddin Əttarın (1141-1221) farsca yazdığı "Məntiqüt-teyr" ("Quşların dili" və yaxud "Uçmağın məntiqi") və böyük türk-özbək şairi Əlişir Nəvainin (1441-1501) çağatay türkcəsində qələmə aldığı "Lisan üt-teyr" ("Quşların dili") əsərlərindən təsirlənərək yazmışdır. Bununla belə, qeyd etmək lazımdır ki, Ziyaəddin Nəxşəbinin fars dilində yazdığı məşhur "Tutinamə" əsəri (1330) də çox məşhur alleqorik əsərlərdən biri olmuşdur və hələ orta yüzillərdə bir sıra dillərə, həmçinin türkmən dilinə də tərcümə olunmuşdur. Mümkündür ki, Məhtimqulunun bu əsərdən də xəbəri olmuşdur.

Məhtimqulu Fəraqinin yaradıcılığının təhlili göstərir ki, o, böyük Əlişir Nəvai yaradıcılığından yetərincə bəhrələnmişdir və adları çəkilən poemalarını da onun "Lisanüt-teyr" ("Quşların dili") əsəri-

nin təsiri ilə yazmışdır (Osmanlı, 2020, ss. 167-173). Hər iki şairin əsərlərinin müqayisəsi göstərir ki, Məhtimqulu özbək dilini bildiyindən, Əlişir Nəvainin əsərini orijinladan kifayət qədər yaxşı mütaliə etmişdir. Belə ki, Məhtimqulu Xivədəki "Şirqazi xan mədrəsəsi"ndə və Buxarada "Kukəldaş mədrəsəsi"ndə öz dövrü üçün yüksək təhsil alarkən, özbək dilini mükəmməl öyrənmişdi və Əlişir Nəvainin yaradıcılığı ilə yaxından tanış olmuşdu (Каррыев, 1972, s. 64). Lakin görünür, Məhtimqulu Əlişir Nəvainin "Lisanüt-teyr" ("Quşların dili") əsəri ilə tanış olan kimi, öz poemalarını yazmağa başlamamış və uzun zaman buna hazırlaşmışdır (Мустаков, 1984, s. 83). Şair poemalarını yazana qədər Əlişir Nəvainin həmin əsərinin təsiri ilə bir neçə şeir də yazmışdır. Məsələn, Əlişir Nəvainin həmin əsərində müqəddəs Kəbənin şeyxlər şeyxi Sənan və xristian gözəli ilə bağlı epizod yerləşdirilmişdir. Məhtimqulu Fəraqi özünün "Yar səndən" adlı şeirini poemanın həmin hissəsinin təsiri ilə yazmışdır:

*Şeyx Sənan tək dərin kədərə ulansam,*
*Şibli kimin toz-torpağa bulansam,*
*Kəbəyə gedib yeddi dəfə dolansam,*
*Ya Rəbb, xəbər bilərəmmi, yar, səndən?* (Fəraqi, 2014, ss. 161-162)

Başqa bir misal. Məhtimqulu Fəraqinin ayrı-ayrı şeirlərində Əlişir Nəvainin "Lisanüt-teyr" adlı əsərində adları çəkilən müqəddəslərin – Üveys Qarani, Zünnub əl-Misri, Əbu Yezid Bistəmi, Əbu Səid Məxneyi, Mənsur ibn əl-Xallac, Bəhauddin Nəqşibəndinin adları çəkilir.

Bundan başqa, Məhtimqulu Fəraqi "Seyranda", "Tili senalı quşlar", "Nalış kılsam quşlar bile" və bir çox başqa şeirlərində quşların xasiyyətlərini verir. Beləliklə, bu və ya digər oxşarlıqlar Məhtimqulu Fəraqinin Əlişir Nəvainin "Lisanüt-teyr" adlı əsəri ilə yaxından tanış olduğunu, "Can içində", "İçində" adlı poemalarını Əlişir Nəvainin "Lisanüt-teyr" adlı poemasının təsiri ilə yazdığını sübut edir (Мустаков, 1984, ss. 81-82). Başqa bir dəlil isə Əlişir Nəvainin əsərində adıçəkilən 20 quşdan Məhtimqulu Fəraqinin "Can içində" poemasında 10 quşun adının çəkilməsidir (Мустаков, 1984, s. 83).

Məhtimqulu Fəraqinin mənzum əsərləri Fəridəddin Əttarın "Məntiq üt-teyr" və Əlişir Nəvainin bu əsərə yazdığı "Lisan üt-teyr" adlı nəzirəsindən həm həcmcə, həm də məzmunca çox fərqlidir. Fəridəddin Əttarın məsnəvi formasında yazdığı "Məntiqüt-teyr" əsəri 4400 beytdən artıq, Əlişir Nəvainin "Lisan üt-teyr" əsəri 3598 beytdir. Məhtimqulu Fəraqinin "Can içində" poemasındakı bəndlərin sayı onun Türkmənistanda nəşr edilmiş əsərlərində müxtəlifdir: 1983-cü ildə Aşqabatda nəşr edilmiş "Seçilmiş əsərləri"də 68 beyt (Maqtımqulı, 1983, ss. 75-79), 290 illik yubileyi ilə əlaqədar nəşr edilmiş ikicildlik "Seçilmiş əsərləri"nin birinci cildində 56 beyt, Bakıda tapılmış son "Divan"ında isə cəmi 50 beytdir. Əsərdəki bəndlərin fərqli olmasının səbəbi şairin əsərlərinin müxtəlif illərdə yaddaşlardan toplanması ilə əlaqədardır. Şairin Bakıda tapılmış son "Divan"ı tədqiqatçılar tərəfindən daha mükəmməl hesab edildiyindən, poemanın cəmi 25 bənd – 50 beytdən ibarət olduğunu söyləmək olar.

Şairin "İçində" poeması isə 15 bənd – 30 beytdir. Poemaların həcminin az olmasına baxmayaraq, Məhtimqulu Fəraqi də sələfləri kimi, alleqoriyanın geniş imkanlarından yaradıcılıqla bəhrələnərək, öz fikrini çatdıra bilmişdir.

Hər üç sənətkarı əqidə etibarı ilə birləşdirən sufizm idi və hər biri öz əsərində sufi ideyaları təbliğ etmişlər. Həmçinin Əlişir Nəvai ilə Məhtimqulu Fəraqi sufizmin Nəxşibəndi təriqətinin üzvləri olmuşlar. Əgər Fəridəddin Əttar "Məntiqüt-teyr" əsəri vasitəsilə təsəvvüfün vəhdəti-vücud nəzəriyyəsini irəli sürürdüsə, Əlişir Nəvai "Lisanüt-teyr" əsərində başda müdrik hökmdar olmaqla, ədalətli cəmiyyət yaratmaq fikrini irəli sürmüşdür. Məhtimqulu Fəraqi "Can içində" poemasında

*Nəfsin deyər: "Xoş olsam,*
*Göyçəklərə tuş olsam,*
*Yesəm-içsəm, xoş olsam,*
*Yatsam eyvan içində"*

– deyə gününü eyş-işrətdə keçirmək istəyən insanları haqqa-ədalətə, doğru yola çağırır:

*Gedən yolun bilməsən,*
*Doğru yola gəlməsən,*
*Haqqı yada salmasan,*
*Qaldın arman içində.*

Poemalarda daha sonra xırmanlığa yığılmış quşların söhbətləri verilir. Oradakı quşların hər biri həyatda nəyə qadir olduqlarından danışırlar. Bütün quşlar haqqında məlumatları əfsanə və nağıllardan toplayan Məhtimqulu poemasında onların öz dilləri ilə özlərinin xasiyyətlərini çox yığcam və lokonik dillə təsvir edir. Onların hamısının qəlbində Allah sevgisi, dillərində Tanrının adı var:

*Aşiq deyər: "İllallah!"*
*Qaranquş "Əlhəmdülillah!"*
*Leylək deyir: "Kulhuvallah!"*
*Hannan-Mənnan içində.*

Bunlara baxmayaraq, Məhtimqulu Fəraqinin poeması Əlişir Nəvainin poemasından fərqli olaraq, sufi məzmunlu deyil. Onun poemasında quşların – simvolik obrazların timsalında ətraf aləmi dərk etməsi ön plana çəkilir və insanlardakı yaxşı cəhətlər tərənnüm edilir (Мустаков, 1984, s. 83).

Şairin qısahəcmli "İçində" poemasında da bir neçə yırtıcı heyvanın, quşların, ev heyvanlarının xasiyyətləri haqqında alleqorik formada, yəni onların öz dilləri ilə qısaca məlumat verilir. Məhtimqulu Fəraqi bu iki poemasında iştirak edən quşların, heyvanların həyat tərzini olduqca düzgün təsvir etmişdir. "İçində" adlı poemada bülbül özü haqqında deyir:

*Bülbül deyər: "Can-tənim,*
*Bağ içində hər günüm,*
*Məclisdədir məskənim,*
*Sayrayıb, reyhan içində".*

"Can içində" poemasında durnalar qışda soyuqlar düşəndə isti ölkələrə, o cümlədən Hindistana uçub getdiklərini bildirirlər:

*Durna deyir: "Pər açaram,*
*Bağdad suyun içərəm,*
*Qış Hindistana köçərəm,*
*Laləzaran içində".*

Yenə orada, Musuca – göyərçin viranədə üç ağacı bir-birinə çatıb yuva qurduğunu və orada yumurta qoyduğunu bəyan edər:

*Musuca deyir: "Gedərəm,*
*Gəldim, bildim – ötərəm,*
*Üç ağacı çataram,*
*Yumurtlayıb viran içində".*

Beləliklə, bu poemalarındakı təsvirlər, bir daha təsdiq edir ki, Məhtimqulu onları yazana qədər uzun müddət quşların, ev heyvanlarının, vəhşi heyvanların həyat tərzini, xasiyyətlərini ətraflı öyrənmiş və sonra poemalarını qələmə almışdır. Şairin bir çox şeirləri də təsdiq edir ki, o, daim təbiətlə təmasda olmuş, böyük zəhmət hesabına təbiətdəki heyvanların həyatlarını öyrənmiş və öyrəndiklərini şeirlərində əks etdirmişdir (Çarıqulıyeva, 1961, ss. 65-72). "Seyran içində", "Badi səbanı görsəm", "Daşlar ilə", "Seyranda", "Dili sənalı quşlar" və s. şeirləri bunun ən bariz nümunələridir. "İçində", "Can içində" adlı poemalarında olduğu kimi, şairin bu və digər şeirlərində də quşların xasiyyətlərinin təsviri əsas mövzudur. Tədqiqatçı R.Mustakovun fikrincə, dünyanı dərketmə və optimist notlarla zən-

gin olan bu şeirlərini şair mədrəsədə oxuduğu illərdən sonra yazmışdır (Мустаков, 1984, s. 82). Fikrimizcə, bu sözləri Məhtimqulunun "İçində", "Can içində" adlı poemalarına da aid etmək olar.

Məhtimqulu Fəraqi poemalarının bir çoxunun mövzusunu demək olar ki, Şərqdə geniş yayılmış rəvayət və əfsanələr təşkil edir. Bu əsərlərin qəhrəmanları Məhəmməd Peyğəmbər və xəlifə Əlidir. Eyni zamanda onun yaradıcılığında "Quran" qissələri əsasında yazılmış epik əsərlər də mövcuddur. Şairin bu qəbildən olan poemalarına "Atlı, yaranlar" ("Adlı, dostlar") və "Maqşarnama" ("Məşhərnamə") poemaları aiddir.

Məhtimqulu Fəraqinin "Atlı, yaranlar" ("Adlı, dostlar") poemasının əsasını "Qurani-kərim"in 12-ci – "Yusuf" surəsi ilə bağlı olan "Yusif və Züleyxa" dastanı təşkil edir. Düzdür, Yusif və Züleyxanın sevgisindən bəhs edən əfsanə daha qədimdir və Şərqdə geniş yayılmışdı, həmçinin çoxlu sayda Şərq şairləri bu mövzuya əsərlər həsr etmişdilər. Q.Nəzərovun göstərdiyinə görə, Yusiflə Züleyxanın sevgisindən bəhs edən 117-dən çox əsər yazılmışdır (Andalıp, 1973, s. 15). XIII əsr Azərbaycan şairi Qul Əlinin (1212) "Qisseyi-Yusif", Nəsirəddin Rəbğuzinin (1311) "Qissəsül-ənbiya", Əbdürrəhman Caminin (1483) "Yusif və Züleyxa", Nurmühəmməd Əndəlibin (XVIII) "Yusif və Züleyxa" əsərləri bu mövzuda yazılmış ən məşhur əsərlərdəndir. Məhtimqulu da "Adlı yaranlar" poemasında Yusif və Züleyxanın sevgi macəralarını olduqca qısa şəkildə təsvir etmişdir.

Nəzərə almaq lazımdır ki, "Qurani-kərim" dünya ədəbiyyatının ən məşhur abidələrindən biri və ilk ərəb yazılı nəsr əsəridir. Orada özündən əvvəlki dövrlərin əfsanə və rəvayətləri, əfsanəvi şəxslər və xalqlar haqqında bu və digər dərəcədə hadisələrin təsviri ilə yanaşı, Yusif haqqında daha dolğun 12-ci surə – "Surətül-Yusif" də vardır (2010, ss. 277-288). Məhtimqulu Fəraqi də gözəl dini təhsil almışdı və "Quran"dakı bu və ya digər əhvalatlarla daha yaxından tanış idi. Onun əsərləri ilə daha yaxından tanışlıq göstərir ki, məhz dini təhsili onun dünyagörüşünə və yaradıcılığına möhkəm təsir etmişdir. Şübhə yoxdur ki, Məhtimqulu Yusiflə Züleyxanın sevgisindən bəhs edən "Adlı dostlar" ("Atlı yaranlar") adlı poemasını yazmamışdan əvvəl xalq arasında yayılmış əfsanələri, "Quran"ın "Yusif" surəsini və özündən əvvəl bu mövzuda yazılmış bədii əsərləri yaxşı öyrənmişdir. Məhtimqulu bu poemasından əlavə bir çox şeirlərini də Yusif peyğəmbərə həsr edibdir. Şairin 50-ə yaxın şeirində Yusiflə bağlı hadisə öz əksini tapıbdır. Onun günümüzə gəlib çıxan 740-a yaxın şeirinin 200-də Züleyxa, Yusif, onun qohum-əqrabaları (İbrahim peyğəmbər, İshaq peyğəmbər, Yaqub peyğəmbər və s.) xatırlanıbdır (Meläýewa, 2014, s. 342).

Bütün bunlara baxmayaraq, Məhtimqulu "Adlı, dostlar" poemasında "Quran"ın "Yusif" surəsini birbaşa nəzmə çəkmədiyi, onun özündən əvvəl yazılmış əsərlərdən təsirləndiyi görünür. Şairin özü də poemasının əvvəlində onu yazarkən bəhrələndiyi əsərin adını çəkmişdir, lakin onun müəllifinin kimliyini göstərməmişdir:

*Dəftərlər içində bir kitab gördüm,*
*"Qisəsül-ənbiya" adlı, dostlar.*
*Həzrəti Yusifi bəyan eyləli,*
*Hekayəti şəkərdən dadlı, dostlar.*

Bu bənddə adıçəkilən əsər ümumtürk abidələri içərisində özünəməxsus yeri olan Nəsirəddin Rəbğuzinin "Qisəsül-ənbiya" ("Peyğımbərlər haqqında qissə") əsəridir. Müəllif onu hicri 710-cu ildə (miladi 1311-ci il) yazmışdır. "İncil" və "Quran"da adıçəkilən peyğəmbərlər haqqında geniş məzmunlu bədii nəsr əsəri olan "Qissəsül-ənbiya"nı Nəsirəddin Rəbğuzi fars dilindən türk dilinə çevirmişdir. Bu qissənin əsas nüsxəsi ərəb dilində olubdur. Məşhur türk alimi Mustafa ibn Abdulla Katibin dediyinə görə, bu əsəri ərəb dilində yazan müəllif VII-VIII əsrlərdə yaşamış Vahab ibn Münəbbindir. Əsər sonralar ərəb dilindən fars dilinə tərcümə olunubdur. Nəsirəddin Rəbğuzi bu əsəri dostlarının xahişi ilə fars dilindən türk dilinə çeviribdir (Guzyçyýewa, 2014, s. 107).

Məhtimqulu Fəraqinin "Adlı, dostlar" poeması Yusifin həyatına həsr edilmişdir. Orada Yusif haqqında "İncil" və "Quran"da olan ("Yusif" surəsi) süjet təfsilatı ilə saxlanılmış, onun Misirdə qul kimi satılması, Misir Əzizinin (şəhəri idarə edən – İ.O.) arvadı Züleyxa ilə münasibəti və s. ətraflı təsvir edilmişdir.

Məhtimqulu Fəraqi Nəsirəddin Rəbğuzinin “Qissəsül-ənbiya” əsərindən istifadə etsə də, tamamilə onu təkrarlamamışdır. Oradakı şəxs adlarını, başqa detalları “Qissəsül-ənbiya”da olduğu kimi saxlasa da, şair mövzunu öz dövrünün tələblərinə uyğun şəkildə işləmişdir. Şairin cəmi 84 misra həcmində olan poemasında özündən əvvəlki şair və yazıçıların əsərlərindəki ənənəvi süjetlərin əksəriyyəti yoxdur. Məsələn, əvvəlki əsərlərdə çoxlu yuxu epizodları olduğu halda, Məhtimqulunun poemasında cəmi iki yerdə – poemanın əvvəlində 7 yaşlı Yusif yuxu görür və sonunda isə Misir sultanının yuxusunu yozur. Türkmən tədqiqatçısı R.Mustakov Məhtimqulunun “Adlı, dostlar” poeması ilə Qul Əlinin “Qisseyi-Yusif” adlı əsərində bu epizodların təsvirini müqayisə edərək, hər ikisinin yazıldığı şeir ölçüsü və üslubun oxşarlığına əsaslanıb, şairin həmin əsərlə tanış olduğunu da güman edir. Doğrudan da Məhtimqulunun Yusif və Züleyxanın sevgisindən bəhs edən şeirlərini də göz önünə gətirdikdə, Qul Əlinin “Qisseyi-Yusif” adlı poemasının onun yaradıcılığına təsirini hiss etməmək mümkün deyildir. Məsələn, hər iki poemadakı oxşarlıq:

Qul Əlinin “Qisseyi-Yusif”ində:

*Doğar Qün, dolan Ay, on bir yıldız*
*Düyşüm içrə sejde kıldı maňa düpdüz,*
*Uşbu düyşnü beyle qördüm hiç qümansız,*
*Ya əbi, maňa tovil kılqıl imdi.*

Məhtimqulunun “Adlı, dostlar” poemasında:

*Cak içinde yatdı üç qice qündiz,*
*Hazreti Cebrayıl sakladı təmiz,*
*Bir Ay bile bir Qün ol on bir yıldız,*
*Yusupqa köp taqzım etdi, yaranlar!*

Və ya Məhtimqulunun poemasının əvvəlində

*Həzrəti Yusupnı beyan eyləli,*
*Qissası şekerden datlı, yaranlar*

Qul Əlidə

*...Aydar sözün yavlak maňa datlı qeldi.*
*...Sözledikçe Yusubıň pəxmi artar*
*Sözi datlı ... şirin, aklı artar...* (Мустаков, 1987, ss. 88-89)

Bu poemadan başqa, Məhtimqulunun şeirlərində də Yusiflə bağlı süjetlər var. Onun “Batdı, dostlar” (Fəraqi, 2014, ss. 290-291) və “Şahlıq ilə” adlı müxəmməsində

*Yaqub oğlu ol Yusifin kəkilindən tutdular,*
*Vurdular, ağlatdılar “Qurd yedi” deyib satdılar.* (Fəraqi, 2014, s. 419)

qardaşlarının onu satdığı, “Ərəbdilli, sevdiyim” adlı şeirində (Fəraqi, 2014, ss. 451-452) Yusif haqqında əfsanələrdə qardaşlarının onun köynəyini keçi qanına bulayıb, atalarına onu qurdun yediyini demələri təsvir olunur:

*Boyadılar köynəyini qan ilə,*
*Adı bəlli. Ərəbdilli, sevdiyim.* (Fəraqi, 2014, s. 451)

Bütün bunlar onu göstərir ki, Məhtimqulu Fəraqi “Adlı, dostlar” poemasını yazmamışdan əvvəl

sələflərinin əsərlərindən yaradıcılıqla bəhrələnmiş, Yusifə həsr edilmiş bədii əsərləri, xalq arasında dolaşan əfsanə və rəvayətləri, həmçinin "Quran"ın "Yusif" surəsini dərindən öyrənmiş, bir sözlə, şair poemasını yazarkən, ciddi axtarışlar aparmış, onun mənbələri ilə yaxından tanış olmuşdur. Amma şairin məqsədi Yusifin həyatını, onunla bağlı bütün hadisələri, onun başına gələnləri büsbütün əks etdirmək olmadığından, həmin rəvayətlərdə bəhs edilənləri olduğu kimi qələmə almamış, süjeti dini (məsələn: Yaqubun, Yusifin Cəbrayıl vasitəsilə çoxlu sayda müraciətləri, Yusifə peyğəmbər kimi müraciəti) və dini-fantastik lövhələrdən (Yusifin xahişi ilə günün günorta çağı tufan olması, Züleyxanın cavanlaşması, Yaqubun gözlərinin möcüzəli şəkildə görməsi və s.) azad etməklə, yığcam bir əsər yazmışdır. Bununla da Məhtimqulu dini-fantastik ideyaları içinə alan epik nümunə deyil, canlı həyatla bağlı olan dünyəvi bir əsər yaratmışdır. Əsərdə Yusifi bir çox çətinliklərlə üzləşən və sonda padşah olan adi bir insan kimi təsvir etmişdir. Poemada Məhtimqulu atasını, Vətənini itirən, bir çox çətinliklərə dözən, heç zaman ümidini itirməyib öz məqsədinə çatan gənc Yusifin obrazını yaratmağa nail olmuşdur. Şair özünün yaşadığı çox çətin bir şəraitdə vətəni Türkmənistanı müstəqil görmək arzusu ilə bu yolda hər bir çətinliyə dözərək istəyinə nail olmaq kimi, dövrünün mürəkkəb tarixi şəraitindən doğan ideya və münasibəti qabartmışdır.

Məhtimqulunun "Quran" qissələri əsasında qələmə aldığı dini məzmunlu ikinci poeması "Məşhərnamə" adlanır. Əsər bir çox əlyazmalarda "Qiyamətnamə" kimi də göstərilir.

Əsərin mövzusu türk xalqları ədəbi mühitində geniş yayılmış mövzulardan biridir. Bu mövzuda ilk əsər yazanlardan biri Qul Süleyman kimi tanınan Süleyman Bakırqani (1186-cı ildə vəfat edib) olubdur. Onun "Axır zaman kitabı" əsəri müsəlman aləmində çox məşhur olub. İlk dəfə 1847-ci ildə nəşr olunan bu kitab sonrakı 10 il ərzində (1855–1864) 9 min 600 tirajla nəşr edilibdir (Aşırov, 1983, s. 76).

Bu əsərlərin mövzusu "Qurani-kərim"dən götürülüb. Məlumdur ki, "Qurani-kərim"də Məhşər günü haqqında kifayət qədər bilgilər vardır. İslam təliminə görə, belə düşünülür ki, insanın həyatı boyunca etdiyi bütün – yaxşı və yaman əməlləri Allah görür və son anda insan Allahın hüzurunda olub, əməllərinə görə hesab verməli olur. İnsanın Allaha hesab verəcəyi həmin gün *Məhşər günüdür*. Ona görə, bu gün *Hesab günü, Qiyamət günü və Məhşər günü* adlanır.

Hər bir şəxsin bu müddət ərzində gördüklərinin hamısına Allah şahiddir, çünki hər kəsin hər an etdiklərini yalnız Allah görə bilir və hər kəsin gizlətdiyini zahirə çıxaran Odur. Hesab günündə də hər kəsə etdikləri əməllərin hər biri haqda yalnız Allah xəbər verə bilər. Bu haqda "Qurani-kərim"in "əl-Mücadələ" surəsinin 6-cı ayəsində: "Allah onların hamısını dirildəcəyi gün etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah (*onların əməllərini bir-bir*) sayıb yazmış, onlar isə (*etdiklərini*) unutmuşlar. Allah hər bir şeyə şahiddir!" ("əl-Mücadələ", 6) və "əz-Zəlzələ" surəsinin 6-8-ci ayələrində "O gün insanlar əməllərinin özlərinə göstərilməsi üçün (*qəbirlərdən məhşərə*) dəstə-dəstə çıxacaqlar! (*Cənnətliklər sağ tərəfdə, cəhənnəmliklər isə sol tərəfdə olacaqlar*).

Kim (*dünyada*) zərrə qədər yaxşı iş görmüşdürsə, onu ( *onun xeyrini*) görəcəkdir.

Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (*onun zərərini*) görəcəkdir" ("əl- Zilzal", 6-8). Çünki "əl-Bəqərə" surəsinin 197-ci ayəsində deyildiyi kimi, "...Allah gördüyünüz hər bir yaxşı işi bilir. (Həcc və ya axirət üçün) tədarük görün. Ən yaxşı tədarük (azuqə) isə təqvadır (pis əməllərdən çəkinməkdir). Ey ağıl sahibləri, Məndən qorxun!" ("əl-Bəqərə", 197) deyərək, insanları Hesab gününə tədarük görməyə çağırmışdır. Rəbbinin çağırışına itaət edib doğru yolda olmuş bəndələr üçün o gün heç bir qorxu və hüzn yoxdur; yalnız o gün gördükləri əməlləri xatırlayacaqlar. "Bəlkə, şükür edəsiniz deyə, biz sizi ölümünüzdən sonra yenidən diriltdik" ("əl-Bəqərə", 56). Şəkk-şübhə edənlər də həmin gün etdikləri əməlləri xatırlayacaqlar və peşmanlıq keçirəcəklər. "Və Cəhənnəmin ( *məhşər meydanına*) gətiriləcəyi gün – məhz o gün insan (*öz günahlarını*) xatırlayacaqdır. Lakin bu xatırlamağın ona nə faydası?!

O: "Kaş ki, mən əvvəlcədən (*axirət*) həyatım üçün (*yaxşı əməllər*) edəydim!" – deyəcəkdir. O gün (*Allahın*) edəcəyi əzabı heç kəs edə bilməz!" ("əl-Fəcr", 23-25).

"Qurani-kərim"də göstərilir ki, "O saat (*qiyamət günü*) mütləq gələcəkdir. Ona heç bir şəkk-şübhə yoxdur. Lakin insanların çoxu (*buna*) inanmaz!" ("əl-Mumin" , 59). "Sizə vəd olunan (*qiyamət*) həqiqətdir. Haqq-hesab (*cəza və mükafat)* da labüddür". ("əz-Zariyat", 5–6). "O, kəslər ki, sənə göndərilənə (Qurana) və səndən əvvəl göndərilənlərə (Tövrat, İncil, Zəbur) iman gətirir və axirətə də

şəksiz inanırlar”. (“əl-Bəqərə”, 4). “ər-Kəhf” (Mağara) surəsində isə Qiyamət gününün necə olacağı haqqında deyilir: “O gün (*qiyamət günü*) dağları (*yerindən qoparıb*) hərəkətə gətirəcəyik. (*O vaxt*) yeri dümdüz görəcəksən, (*möminləri və kafirləri*) bir yerə toplayacaq, onların heç birini (*kənarda*) qoymayacağıq.

Onlar Rəbbinin hüzuruna cərgə-cərgə (*səf-səf*) gətiriləcəklər. (*Onlara belə deyiləcək*:) “Siz Bizim yanımıza sizi ilk dəfə yaratdığımız kimi (*lüt-üryan, mal-dövlətsiz*) gəldiniz. Lakin siz elə güman edirdiniz ki, Biz sizə verdiyimiz vədi (*öləndən sonra diriləcəyinizi*) yerinə yetirməyəcəyik!” (“əl-Kəhf”, 47-48).

“Quran”ın müəyyən ayələrində təsvir edidiyi kimi, Məhtimqulu da həmin ayələrindən çıxış edərək, Məşhər gününün olacağını, Yəcuc və Məcucun Qaf dağını deşib gələcəklərini, İsrafilin surunu çalacağını, dağların əriyəcəyini, dəryaların quruyacağını və s. hadisələri təsvir edir. Şair həmin gün hər bir kəsin etdiyi əməllərinə görə cavab verəcəyini yada salır, insanları mərhəmətli olmağa, kasıblara, yoxsullara kömək etməyə, xeyir işlərlə məşğul olmağa, şər işlərdən çəkinməyə çağırır. O, əsərində yaratdığı müxtəlif lövhələrlə belə etməyənləri qorxudur:

*Kimi od şalvarlı əzab çəkib örtər,*
*Kimisi məst olub yıxılar yatar,*
*Kiminin ayağı alnına bitər,*
*Başı ilə yeriyib, gəlsə gərəkdir.*

*Od tək qızğın dəmir döşək yerinə,*
*Növhəgərin başı dəyər burnuna,*
*Dili uzanar, düşər çatar qarnına,*
*Əməlinə dolaşıb qalsa gərəkdir.*

Professor A.Aşırovun fikrincə, Məhtimqulu Fəraqi “Məşhərnamə”sini yazarkən, birbaşa “Quran” ayəsini nəzmə çəkməmişdir. O, əsərinin süjetlərini Şəms Asinin “Qiyamətnamə” adlı əsərinin əsasında hazırlamışdır (Аширов, 1990, стр. 94).

Məhtimqulu Fəraqinin “Məşhərnamə” adlı poemasının əlyazma nüsxələrindən biri Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunun Əlyazmalar fondunda iki əlyazmanın tərkibindədir. 1786 №-li əlyazma nüsxəsinin içərisində 1-2 vv.-də poemanın bir hissəsi vardır (Aşırov, 1984, s. 125).

Poemanın bütöv bir əlyazma nüsxəsi isə həmin İnstitutda 103 №-li əlyazma nüsxəsinin içərisində saxlanılır. Poemanın əlyazması ümumi əlyazmada 8b-10b vərəqlərində yazılmışdır. Poema 8b vərəqində belə başlayır:

*Gardaşlar, gün-günden beter bolupdyr,*
*Ýyl-ýyldan bet zatlar gelse gerekdir.*
*Hamr içen, zyna kylan, jahana,*
*Belli meşhur bolup, dolsa gerekdir.*

Poema 10b vərəqində belə qurtarır:

*“Dünýä bu dünýä” diýp ýatan serhoşlar,*
*Ynanmaýyn kapyr bolur gardaşlar,*
*Magtymguly aýdar, geler bu işler,*
*Kyýamat gün gullar görse gerekdir.*

Poema 38 bənd, 152 sətirdən ibarətdir. Hər səhifədə 14-16 sətir olmaqla, mətn iki sütunda yazılıbdır. Paleoqrafik əlamətlərinə görə, əlyazmanın üzünün köçürülməsi tarixi kimi XIX əsrin II yarısının olduğu bildirilir (Aşırov, 1984, ss. 137-138).

Poemanın başqa bir əlyazma nüsxəsi isə Türkmənistan Əlyazmalar İnstitutunda saxlanılan 6160

№-li əlyazma nüsxəsidir. Təcribəndin bir növündə yazılan poema ümumi əlyazmada 127b-132b vərəqlərində yazılıbdır. Cəmi 113 sətirdən ibarətdir (Aşyrow, A; Mämmetjumaýew , A; Guzuçiýewa, G;, 2013, s. 353).

Şairin Bakıda tapılmış "Divan"ınındakı "Məşhərnamə" 37 bənd 148 sətirdən ibarətdir (Osmanlı, 2014). Daşbasma üsulu ilə 1914-cü ildə Buxarada basılan həmin "Divan" hazırda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun kitabxanasında XIV-17/6328 saylı şifrə altında saxlanılır.

Məhtimqulu Fəraqinin poemalarının əksəriyyəti, yəni onun "Kökce kepderi" ("Göyçə göyərçin"), "Ak it" ("Ağ it"), "Çakır kelle" ("Kəsik baş"), "Vaqız" ("Və'z") adlı dörd poemasının baş qəhrəmanı xəlifə Əlidir (Sarıyev, 2014). Məhtimqulu bir çox şeirlərində də Əlinin adını çəkmiş, hətta ona "Əlidir" adlı məşhur bir şeir də həsr etmişdir. Məhtimquluya görə, Həzrəti Əli sözünə əməl edən, islam dininin yayılması yolunda fədakarlıq göstərən, cəsurluğu, fədakarlığı, insanpərvərliyi, əliaçıqlığı ilə müsəlmanlara nümunə olan islam müqəddəslərindəndir:

*Zərb vuruban Cənadilin şəhrinə,*
*Kafirlərə qəzəb salan Əlidir.*
*Göz yumub açınca qırx günlük yolu,*
*Düldülə bir fərsəx qılan Əlidir.*

*Başlar azad etdin div qucağından,*
*Əjdaha ləbindən, dağ bucağından,*
*Darvazasın çəkib Xeybər dağından,*
*Yeddi qalaya birdən dolan Əlidir...*

*Məhtimqulu deyər, təndə bu canın,*
*Yolunda nisar et Şahimərdanın,*
*Əl uzadıb dörd tərəfnə dünyanın,*
*Məhəmməd dininə salan Əlidir.* (Magtymguly, 2013, ss. 167-168)

Məhtimqulunun yaradıcılığında həzrəti Əliyə həsr olunan poemaları arasında onun "Kəfdər" – "Göyərçin" poeması diqqəti daha çox cəlb edir. Türkmən dilində "Kepderi" adlanan poemanın xalq arasında həmçinin "Göyçə göyərçin" ("Göy göyərçin") və "Hökmü daveri" adları olmuşdur. Amma hazırda poemanın adı son olaraq "Kepderi" kimi təsbit olunmuş və şairin son illərdə nəşr olunan bütün əsərlərinə bu adla daxil edilmişdir. Əsər yeddihecalı mürəbbe formasında yazılmışdır. Cəmi 24 bənddən ibarətdir. Poemanın bütün əlyazma nüsxələrini tədqiq etmiş R.Mustakov göstərir ki, əlyazmaların bir çoxunda bəndlərin yeri dəyişikdir. Alimin fikrincə, poemanın şairin 1983-cü ildə rusca nəşr olunmuş "Seçilmiş əsərləri"nə daxil edilmiş son variantında bu qüsurlar aradan qaldırılmış və bəndlərin məntiqi ardıcıllığı bərpa edilmişdir. Onun fikrincə, poemanın son bəndinin də orijinallığı şübhə doğurur. Belə ki, poemanın bir çox nəşrlərində həmin bənd müxtəlif variantlarda belə verilmişdir:

1. *Tamam boldy bu sözler,*
   *Etseler gerek eser,*
   *Magtymguly – häkisar,*
   *Şahymerdan çäkeri...*

2. *Tamam boldy bu destan,*
   *Bu destan hem tilinden,*
   *Magtymguly häk sary,*
   *Şahymerdan çäkeri...*

3. *Tamam boldy bu dessan,*
   *Gurulmuş bağy-bossan,*

*Tiliňdedir bu dessan,*
*Magtymguly häk sary…* (Мустаков, 1989, стр. 64-65)

Tədqiqatçı R.Mustakov göstərir ki, bəndin son variantının üçüncü “Tiliňdedir bu dessan“ kimi yazılmış misrası poemanın 1102-saylı qovluqda saxlanılan əlyazma nüsxəsində “Rehm eylegyl ýa rahman” kimi yazılıbdır (Мустаков, 1989, стр. 65). O, həmin bəndin son misrasının “Magtymguly xäk sary – Məhtimqulu torpağa sarı [gedir]” yazılışına diqqət yetirərək, belə qənaətə gəlir ki, şair poemanı ömrünün sonunda, ölümünün yaxınlaşdığı illərdə yazmışdır (Мустаков, 1989, стр. 65). Bundan çıxış etməli olsaq, poemanın son bəndinin 1102 saylı qovluqdakı kimi verilməsini daha düzgün hesab edirik. Bununla belə, fikrimizcə, bəndin ikinci misrası “Gurulmuş bağy-bossan” kimi deyil, “Gurumuş bağy-bossan” kimi yazılsa, daha düzgündür. Deyilənləri nəzərə alsaq, həmin bəndi yekun olaraq belə vermək olar:

*Tamam boldy bu dessan,*
*Gurumuş bağy-bossan,*
*Rehm eylegyl, ýa rahman,*
*Magtymguly xäk sary –*

*Tamam oldu bu dastan,*
*Qurumuş bağı-bostan,*
*Rəhm eylə, ya rəhman,*
*Məhtimqulu xak sarı.*

Bəndin bu cür quruluşunda bir kövrəklik duyulur ki, bu da şairin poemanı, doğrudan da, ömrünün sonlarına yaxın dövrdə yazdığını deməyə əsas verir.

Şairin poemasında göstərilir ki, Xəlifə Əli (656–661) bir dəfə məscidə toplaşanlar qarşısında “Quran” oxuyarkən, bir yaşıl göyərçin uçub gəlir. Göyərçin Əlidən onu öldürmək istəyən şahindən qorumağı xahiş edir. Əli göyərçini paltarının qolunda gizlədir. Uçub gələn şahin Əlidən öz qənimətini tələb edir. Əli öz qulluqçusu Qəmbəri çağırır və xəncərini gətirməsini əmr edir. Qulluqçu xəncəri gətirəndə Əli öz budunun bir hissəsini kəsməyə cəhd edir. Peyğəmbərlərin əti ona qadağan olunduğundan, şahin belə etməməsini xahiş edir və Əlini sınamaq üçün gəldiklərini izah edir. Sonra isə şahinlə göyərçin göylərə qalxıb, gözdən itirlər.

Başqa poemaları kimi, Məhtimqulu Fəraqi bu poemasının da mövzusunu özündən əvvəlki rəvayət və yazılı mənbələrdən götürmüşdür. Lakin şairin hansı mənbədən istifadə etdiyini söyləmək çətindir. Şərq xalqlarının ədəbiyyatında bu mövzunun təsvir edildiyi iki yazılı mənbə məlumdur. Onlardan biri IV-V əsrlər Xorasandakı sufiliyin tarixi üçün əhəmiyyətli mənbə olan və XII-XIII əsrlərdə Əbul Həsəni-Hərəkəni (öl: 1033-34) tərəfindən fars dilində yazıldığı güman edilən “Nur əl-ulum” (“Elm işığı”) adlı əsər (Бертельс, 1965, стр. 225-279), digəri isə XVIII əsrdə türk ədəbiyyatında bu mövzuya həsr olunmuş “Dastani-göyərçin” adlı poemadır (Дмитриева, 1980, стр. 141).

“Nur əl-ulum” adlı əsərdə Musa peyğəmbərlə göyərçin (Mikayıl) və şahin (Cəbrayıl) arasında baş verən hadisə belə təsvir edilir: “Musa, Allah ona rəhmət etsin, bir dəfə ibadətlə (*məqami-münəcat*) məşğul olarkən bir müraciət eşitdi: “Ey Musa, aman istəyəni qoru!” İbadəti qurtarandan sonra bir göyərçin uçub gəldi və dedi: “Qoru, ey Musa, qoru!” – Musa paltarının qolunu açdı, göyərçin [ora] uçdu. Bir qədər sonra bir şahin uçub gəldi və dedi: “Sən mənim ov quşumu paltarının qoluna qoymusan, onu mənə ver”. [Musa] dedi: “Mənə Allah əmr etmişdir ki, kömək üçün xahiş edəni qoru”. Musa əlini uzatdı ki, öz budundan bir tikə ət qoparıb ona versin. Şahin dedi: “Ey Musa, məgər sən bilmirsən ki, peyğəmbərlərin əti bizə qadağandır? Mən söz vermişəm ki, onu tutmayacağam”. Şahin sonra Musanın başı üstündə havada dövrə vurmağa başladı. Göyərçin dedi: “Ey Musa, burax məni!” [Musa] dedi: “Şahin oradadır, uçub səni tutar”. Göyərçin dedi: “Kim söz verirsə, sözündən dönməz və onu pozmaz”. [Musa] göyərçini buraxdı. O da şahinə qoşuldu və hər ikisi dövrə vurmağa başladı. Əmr gəldi: “Ey Musa, şahin Cəbrayıl idi, göyərçin isə – Mikayıl. Onlar səni sınamaq istəyirdilər ki,

sən verdiyin sözə necə əməl edirsən” (Бертельс, 1965, стр. 266).

XVIII əsrdə türk dilində yazılmış “Dastani-göyərçin” adlı poemanın əlyazmasının əvvəli belə başlayır:

*Həza destanı gugerçin*
*Möcüzət resul aleyh*
*(Göyərçin haqqında dastan*
*Peyğəmbərin möcüzəsi).*

Gözəl nəsx xəttilə yazılmış poema belə qurtarır:

*Mevalan ile fakih Ahmet hurmatina*
*Sen erkur aşıkları muradına.*
*(Mövlana və fakih Əhməd hörmətinə*
*Sən aşiqləri muradına çatmağa kömək et).*

Əlyazmada Mövlana adının keçməsinə əsaslanaraq, türkmənistanlı tədqiqatçı R.Mustakov poemanın müəllifinin Mövlana təxəllüsü daşıyan Cəlaləddin Rumi olduğunu güman edir (Мустаков, 1989, стр. 67).

Poemada təsvir edilir ki, bir dəfə günorta namazını qılan Məhəmmədin yanına bir yaşıl göyərçin uçub gəlir. Göyərçin Məhəmməddən xahiş edir ki, onu üç gündür izləyən şahindən qorusun. Peyğəmbər göyərçini qoruyacağına söz verir. Uçub gələn şahin peyğəmbərdən öz qənimətini tələb edir. Peyğəmbər şahinə [göyərçinin] əvəzinə qoyun təklif edir. Amma şahin qoyundan imtina edir və hətta peyğəmbər yüz qoyun təklif etsə belə, imtina edəcəyini bildirir. Peyğəmbər öz bədəninin bir hissəsini bağışlamağa hazır idi. Şahin razılaşır. Peyğəmbər bədəninin bir hissəsini kəsmək qərarına gələn zaman, o, belə etməməsi üçün Allahın məsləhətini eşitdi. Peyğəmbər özünü itirdi. Bu zaman şahin mələk Cəbrayıl şəklinə düşdü, göyərçin isə – İsrafil mələyin. Onlar peyğəmbərin zəiflərə olan mərhəmətini, onları müdafiə etməsini öyrənmək üçün uçub gəlmişdilər və məsləhət gördülər ki, xalqı müdafiə etsin, onlara qarşı mərhəmətli olsun.

İslami ədəbiyyata düşmüş bu süjetin ən qədim variantına hind mifologiyasında rast gəlinir. Orada belə hekayət olunur: “Kral Vinara qurban verirdi. Şahinin qovduğu göyərçin, düşməndən xilas olaraq, kralın yanına uçdu və onun dizinə qondu. Şahin göyərçini tələb etməyə başladı, amma kral onu verməyə razılaşmadı və əvəzində öküz, axta donuz, maral və kəl təklif etdi. “Yaxşısı budur mənə göyərçin ağırlığında öz ətindən ver”, – şahin dedi. Vinara öz bədənindən bir tikə kəsdi, amma göyərçin ağır gəldi. O yenə kəsdi, amma göyərçinin çəkisi daha da artdı. Nəhayət, kralın özü tərəzinin üstündə durdu. Onda şahin dedi: “Mən – səma çarı İndrayam, göyərçin isə – od Allahıdır. Biz sənin səxavətliliyini sınadıq. Sənin şöhrətin bütün dünyaya yayılacaq!” Beləliklə, od Allahı Aqni göyərçin şəklinə, şimşək və ildırım hökmdarı İndira isə şahin şəklinə düşdü” (Ярославский, 1959, стр. 63-64).

Məhtimqulu Fəraqi öz poemasını yazarkən çətin ki, hind əfsanəsindən istifadə etmişdir, amma əfsanədən xəbərdar olmasını istisna etmək olmaz. Onun Hindistana səyahət etdiyi məlumdur. Bəzi məlumatlara görə, Kükəldaşdakı mədrəsədən çıxdıqdan sonra şair, Nurı Qazı ibn Baxırla Hindistana getmiş və üç ay orada yaşamışdır (Шагельдыева , 2014, стр. 100). Şairin Hindistanda olduğunu onun “İçində” adlı şeiri də təsdiq edir. Şairin şeirlərinin tədqiq edən alimlər Məhtimqulunun 48 şeirində Hindistanın adının çəkildiyini bildirirlər (Пенджиев, 2014, стр. 170-171).

Mümkündür ki, Məhtimqulu Fəraqi Hindistanda olarkən hind əfsanələrini də eşitmişdir. Bununla belə, çox güman ki, göyərçinlə bağlı əfsanənin islami variantını tapmışdır. Fikrimizcə, onun islami ədəbiyyatlardakı süjetlərdən istifadə etməsi daha ağlabatandır. Həmin əsərlərdən bəhrələnən Məhtimqulu Fəraqi “Kəfdər” (“Göyərçin”) poemasında bəzi dəyişikliklər etmişdir. Belə ki, “Nur əl-ulum” adlı əsərdəki Musa peyğəmbərin yerinə onun poemasında xəlifə Əli çıxış edir. Şairin Musa peyğəmbərin adı ilə əlaqəli olan rəvayəti birdən-birə xəlifə Əlinin adına bağlamasının səbəbi məlum

deyil. Professor A.Aşırov belə güman edir ki, Məhtimqulu türk ədəbiyyatındakı "Dastani-göyərçin" və fars dilində yazılmış "Nur əl-ulum" adlı əsərdən deyil, xəlifə Əlinin adı keçən fars dilində yazılmış naməlum bir əsərdən istifadə etmişdir. Onun fikrincə, XVI əsrdə İranda hakimiyyətə gələn Səfəvilər dövründə xəlifə Əli və oğlanlarının tərifinə həsr edilmiş əsərlər yazılırdı. Səfəvilərə tabe olan ərazilərdə də şair və yazıçılar buna məcbur edilirdilər. Ola bilsin, Məhtimqulu da təsir altında belə hərəkət etmişdir. Məsələn, səfəvilərin təsirinə məruz qalmayan türk ədəbiyyatındakı "Dastani-göyərçin"də Musanın adı keçir (Aşırov, 1983, ss. 31-32). Başqa bir türkmən alimi R.Mustakov da bunun İranın təsirinin nəticəsi olduğunu bildirir, amma bunun birbaşa olmadığını göstərir. O, bu təsiri Məhtimqulunun Xarəzmdə təhsili ilə əlaqələndirir (Мустаков, 1989, стр. 68). Xarəzmdə Əliyə olan yüksək münasibəti Q.P.Snesaryev oranın "bir zamanlar Əliçilik ənənəsinin siyasətdə və dində kifayət qədər hiss edildiyi Xorasanla çoxəsrlik və möhkəm əlaqəsinin" nəticəsi olduğunu bildirir (Снесарев, 1983, стр. 60).

Göyərçinlə bağlı hər üç əhvalat dini məzmunludur. Hadisələr Allahla əlaqələndirilir. "Nur əl-ulum" adlı əsərin əsas qayəsini nəyə görəsə vəd (söz) verənlərin Allah qarşısında sınağa çəkilməsi təşkil edir. Ona görə də, mələk Cəbrayıl və Mikayıl göyərçin və şahin şəklində göndərilərək Musa peyğəmbərin verdiyi sözə necə əməl etdiyi yoxlanılır. Digər əsərlərdə də verilən vədə əməl olunması təbliğ edilir. Əsas ideya, hətta özünü qurban vermə olsa da belə, zəifləri, köməyə ehtiyacı olanları müdafiə etməyin təbliğidir.

Məhtimqulu Fəraqi bu poemasında da dini motivləri azaltmışdır. Əsərdə daha çox göyərçinin ailə başçısı kimi öz balalarına qayğıkeşliyi tərənnüm olunur. Onun poemasında əsas obraz xəlifə Əli obrazıdır. Şairin o biri əsərlərində çıxış edən Musa və Məhəmməd Peyğəmbərin əvəzinə Əlini seçməsi də onun dünyagörüşü ilə bağlıdır. Real həyata daha yaxın bir əsərdə adi bir şəxsi deyil, məhz Əlini seçməsi ilə o, əsərinin daha inandırıcı təsir bağışlaması üçün bunu etmişdir. Xəlifə Əlinin əfsanə və rəvayət pərdəsinə bürünmüş həyatı da nəsillər üçün ibrət, mərdlik, cəsarət, qayğıkeşlik nümunəsi olduğundan əsər daha təsiredicidir.

Məhtimqulu Fəraqi bu əsərində xəlifə Əlinin şəxsində zülm və pisliyə qarşı insanları aktiv mövqe tutmağa çağırır. Göyərçin və şahin surətlərini yaratmaqla alleqorik formada, hətta özünü qurban verməli olsa belə, kasıb və zəifləri qorumağa, verilən vədə əməl etməyə, insanları istismarçılara, soyğunçulara qarşı mübarizəyə səsləyir.

Beləliklə, göründüyü kimi, Məhtimqulu Fəraqi hər iki poemasını yazarkən Şərqdə geniş yayılmış dini rəvayətlərdən istifadə etsə də, hər iki rəvayətin əslinə sadiq qalmamış, onu özünəxas sənətlə canlandırmışdır. O, hər iki poemasında yaratdığı sadə, realist, dünyəvi motivləri saxlamaqla klassik dini-fəlsəfi sənət tipindən dünyəviliyə doğru iri bir addım atmışdır. Dini məzmunlu rəvayətdən son dərəcə dərin ictimai, fəlsəfi bir poema yaratmaqla özündən sonrakı ədəbiyyatın inkişaf istiqamətlərini müəyyənləşdirmişdir.

Məhtimqulu Fəraqinin bu poemasının əlyazma nüsxəsindən biri Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunun Əlyazmalar Fondunda 1102-ci nömrə altında saxlanılan divanının bir hissəsinin son iki vərəqində yazılıbdır.

Poema belə başlayır:

*Ey yaranlar, musulmanlar,*
*Görün, hökmi daveri*
*Mescitde olturmuşdı,*
*Bir gün murtuza Alı.*

Poemanın son bəndi belədir:

*Tamam boldı bu dessan,*
*Quruldu bağı-bostan,*
*Rehm eylegil ya rehman.*
*Məhtimqulu xək sarı.*

Nəstəlik xəttilə yazılmış əlyazma XIX əsrə aiddir. İki sütunda yazılan mətn 11 sətirdən ibarətdir (Aşırov, 1984, s. 138).

Poemanın başqa bir əlyazma nüsxəsi isə Türkmənistan Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunda saxlanılan 4999 №-li əlyazma nüsxəsidir. Poemanın mətni Məhtimqulunun həmin nömrə altında saxlanılan "Divan"ının 40a–41b vərəqlərinə yazılıbdır (Aşyrow, A; Mämmetjumaýew , A; Guzuçiýewa, G;, 2013, s. 156). Poemanın başqa bir əlyazma nüsxəsi həmin İnstitutun Əlyazmalar Fondunda 1102 № altında saxlanan "Divan"ın sonuncu üç vərəqinə yazılıbdır. Başqa bir əlyazma nüsxəsi həmin İnstitutda Qayibinin 3261 № altında saxlanılan "Divan"ının 1w vərəqinə yazılıbdır. "Gökje kepderi" adlanan bu əlyazma nəstəliq xəttilə yazılıb və 12 sətirdən ibarətdir. Əlyazmalar XVIII-XIX əsrlərə aiddir. Poemanın başqa bir nüsxəsi isə həmin İnstitutun Əlyazmalar Fondunda Şeydayinin 1733 № altında saxlanılan "Gül Sənubər" dastanının 19b-20a vərəqlərinə yazılıbdır. "Kepderi" adlanan poemanın əlyazması 1331/1912-1913-cü ilə aiddir.

Məhtimqulu Fəraqi "Və'z" ("Vaqız") adlı poemasını da Əliyə həsr etmişdir. Bu söz ərəb dilində "nəsihət, öyüd", həmçinin "moizə" mənasındadır (2005, s. 433). Poema Türkiyə ədəbiyyatşünaslığında "Sözüm var", "Vaaz" kimi adlarla nəşr olunub. Biz poemanın adını Azərbaycan dilində "Və'z" kimi təqdim etməyi məqsədəuyğun hesab etdik.

Şairin bu əsəri də islamın dördüncü xəlifəsi Əlinin ideallaşdırılmasına həsr edilibdir. Əsərdə həzrəti Əlinin köməksizlərə əl tutması, səxavəti, hazırcavablığı, yüksək bilik sahibi olması və islamın yayılması yolunda xidmətləri ön planda göstərilir.

Poemada təsvir edilir ki, Əlinin ailəsi çox kasıb yaşayır. Şair bunu Əlinin arvadı Fatimənin dili ilə bildirir:

*Fatma deyir: "Olsa dirhəm",*
*Gedib, yeməyə versəm,*
*Bu iki nuri-didəm,*
*Gün yarım acdır, ağlar".*

Onun ailəsinin belə bir vəziyyətdə olduğu zaman bir adam ona kömək üçün müraciət edərək bildirir ki, arvadı ölmüş, bir südəmər qızı qalmışdır. Başqasına isə 40 min tillə (o zamankı pul vahidi – *İ.O.*) borcu var. O, Əlidən borcunu vermək üçün kömək istəyir. Özü ehtiyac icində olan Əli oğulları – Həsənlə Hüseyni bir cühudun yanında girov qoyub, borc pul götürür, kasıba verib onu yolla salır. Özü isə biliyi sayəsində pulu qazanıb cühuda verib oğlanlarını azad edir.

Dini-fəlsəfi məzmunlu bu əsərində Məhtimqulu Həzrəti Əlinin timsalında ehtiyacı olanlara köməklik göstərilməsini arzulayır, insanda insanpərvərliyi, səxavətliliyi tərənnüm edir (Аширов, 1990, стр. 74-75).

Poemanın əlyazma nüsxəsinə Məhtimqulunun Türkmənistanın Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunda 297a şifrəsi altında saxlanılan "Divan"ının 14a vərəqində rast gəlinir. Bu vərəqdə poemanın 18 sətirlik bir hissəsi yazılıbdır (Aşırov, 1984, ss. 28-29). Poemanın başqa bir əlyazma nüsxəsi həmin İnstitutda 318 şifrəsi altında saxlanılan əlyazmanın 21a–30a səhifələrini əhatə edir. 1939-cu ildə Bekmırat Övezmıradov adlı müəllim tərəfindən yazıya alınan əlyazmanın hər səhifəsində 16 sətir vardır. Poemanın daha mükəmməl əlyazma nüsxəsi həmin İnstitutda 360n1 şifrəsi altında saxlanılır. Əlyazmada poemanın adı yazılmayıbdır. Poema başqa nüsxələrində olduğu kimi belə başlayır:

*Qulak salın qardaşlar,*
*Bir acayıp sözüm bar.*
*Ne ezmayış eyleyir,*
*Dostuna perverdigər.*

Əsərin sonu isə belə qurtarır:

*Məxtumqulı, men cana,*
*Inanmas men cahana*
*Doqada yat kılana*
*Eyəm bolsun medetkar.*

Mürəbbe formasında yazılmış poema 79 bənddən, 316 sətirdən ibarətdir. Poemanı katib P.Aqalıyev 1940-cı ildə Aşır Mırat oğlunun dilindən latın hərfləri ilə yazıya alıbdır.

Poemanın cəmi 18 sətirdən ibarət kiçik bir hissəsi şairin Türkmənistan Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunda 297-ci şifrə altında saxlanılan "Divan"ının 14a vərəqində yazılıbdır (Aşyrow, A; Mämmetjumaýew , A; Guzuçiýewa, G;, 2013, ss. 164-165).

Məhtimqulunun "Ağ it" adlı poeması da xəlifə Əlinin ideallaşdırılmasına həsr edilibdir. "Və'z" poeması ilə bu poemanın mövzusu eynidir. "Və'z"də olduğu kimi, bu poemada da bir dilənçi gəlib bir cühuda qırx min borcu olduğunu bildirir və Əlidən kömək istəyir. Əli yenə oğlanlarını girov qoyub bir cühuddan borc alır və dilənçiyə verir. Professor A.Aşırovun göstərdiyi kimi, şairin "Sözüm var" poemasına nisbətən "Ağ it" adlı poemasının süjet xəttində ardıcıllıq yoxdur. Belə ki, "Sözüm var"da Əlinin oğlanlarını girovluqdan azad etməsi təsvir olunduğu halda, "Ağ it"də həmin süjet yoxdur. Əsər bədii cəhətdən zəifdir.

"Ağ it" adlı poemada Məhtimqulunun adı iki yerdə çəkilir. Professor A.Aşırovun fikrincə, əsərin bir əlyazma nüsxəsinin olması onun Məhtimquluya məxsusluğuna tam əminlik yaratmır. Amma şairin qohumu Zəlilinin də "Ağ it" adlı poemasının olmasına və onun dayısını təqlid etməsinə əsaslanaraq, Məhtimqulunun belə bir poema yazmasını mümkün hesab edir (Aşırov, 1983, s. 32). Lakin sonralar professor A.Aşırov poemanın bədii cəhətdən zəifliyinə işarə edərək, onun Məhtimqulunun qələminə aid olduğuna inamsızlıq yaratdığını bildirir (Аширов, 1990, стр. 77). Bununla belə, müasir türkmən ədəbiyyatşünaslığında həmin poemanın Məhtimquluya məxsusluğu təsbit olunubdur.

Şairin "Ağ it" və "Kəsik baş" poemalarının əlyazma nüsxələri hazırda Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunda 318 saylı qovluqda saxlanılır. Poemanın mətni ümumi əlyazmanın 1a–6b vərəqlərində yazılıb. Cəmi 46 bənd, 184 sətirdir. Poemaları 1939-cu ildə Övezmırat Bekmıradov Murqab rayonunun Şortəpə kəndindən toplayıbdır. Lakin toplayıcı poemaları kimin dilindən və harada yazıya aldığı barədə heç bir məlumat verməyibdir (Aşırov, 1984, s. 139).

Məhtimqulu Fəraqinin "Kəsik baş" adlı poemasında da müsəlman aləmində qəhrəmanlıq, mərdlik, cəsarət simvolu olan xəlifə Əlinin qəhrəmanlığı vəsf edilir. Bu poemanın qısa süjetinə şairin "Əlidir" şeirində də rast gəlinir:

*Kəllə gəldi dərgahın dad ilə,*
*Nizam verdin sərxorlara xətt ilə,*
*Qamqam qılınc ilə, Düldül at ilə,*
*Taxtu-taca qədər varan Əlidir.* (Magtymguly, 2013, s. 168)

Poemada təsvir edilir ki, xəlifə Əli səhabələrlə məsciddə oturarkən bir kəsik kəllə yuvarlanaraq ora gəlir. O deyir ki, "mən əvvəllər kafir idim, amma peyğəmbər yuxuma girəndən sonra müsəlman oldum. Bunu bildikdə div məni yedi". Bunu eşidən Əli gedib döyüşərək həmin divi öldürür. Bu zaman həmin kəsik başın sahibi dirilir.

Şairin poemanın mövzusunu kimdən götürdüyü haqqında məlumat yoxdur. Amma araşdırmalar göstərir ki, Məhtimquluya qədər türk xalqları arasında "Kəsik baş" motivi çox yayılıbmış. Elmə bu mövzuda yazılan "Kəsikbaş kitabı" adlı əsər məlumdur. Tatarıstanlı alim Yalkın Əhmətqaleyevanın fikrincə, bu əsər XIII-XIV əsrdə Volqasahili ərazidə yazılmışdır (Ахметгалеева, 1979, стр. 7). Alimin qənaətincə, əsərin müəllifi məlum deyildir, amma onun Volqa boyunda yaşadığını və Orta Asiyada təhsil aldığını ehtimal etmək olar (Ахметгалеева, 1979, стр. 32). Y.Əhmətqaleyeva öz fikrinin təsdiqi kimi, "Kəsik baş" poeması ilə Volqaboyu türklər arasında məşhur olan Xisam Katibin "Cümcümə sultan" arasında süjet əlaqəsini göstərir (Ахметгалеева, 1979, стр. 37).

Əsərin bütün nəşrlərində və əlyazma nüsxələrində Şəms Təbrizinin adı çəkilir. Əsasən əsərin

sonunda onun müəllifi müəllimi Mövlanə Şəms Təbrizini tərifləyir (Абилов, 1968, стр. 167). Bundan çıxış edən professor A.Aşırovun fikrincə, həmin əsərin müəllifi Cəlaləddin Ruminin (1273-cü ildə ölüb) dini müəllimi, XIV əsrin görkəmli şairi Şəms Təbrizidir (Аширов, 1990, стр. 77).

Tədqiqatçıların bildirdiyinə görə, Şəms Təbrizinin (1348-1406) adı Məhəmmədşirin, atasının adı Yusif, ləqəbi Şəmsəddin, təxəllüsü Məğribidir. Onun 1406-cı ildə altmış yaşında vəfat etdiyini bildirirlər. Şəmsin divanından başqa, "Əsrari-fatihə" ("Sirlərin açılışı"), "Cami-canannüma" ("Dünyanı göstərən cam"), "Dürərəl-fərid" ("Misilsiz dürlər"), "Nüzhətəl-sasaniyyə" ("Sasanilərin əyləncələri") əsərlərinin olduğu bildirilir (Məğribi (Təbrizi), 2009, ss. 186-187). Bundan başqa, Şəmsin Əttarın, Şəbüstərinin və başqalarının əsərlərinin mövzusu əsasında əsərlər yazdığı da məlumdur (Məğribi (Təbrizi), 2009, ss. 192-193). Dövrünün görkəmli şairi olan Şəms Təbrizinin "Kəsik baş" haqqında poema yazması heç də təsadüfi deyildir. Belə ki, onun dövründə Cəlaləddin Ruminin yaşadığı ərazilərdə "Kəsik baş" əfsanəsi daha çox yayılmışdı. Akademik V.A.Qordlevski göstərir ki, Eskişəhərin Yeddilər qəbiristanlığında Seyid Battal Qazinin ardıcıllarından yeddi nəfər dəfn olubdur. Onlardan biri də "Kəsik baş" ləqəbli Yusifdir. Eskişəhərin İnönü kəndinin üstündəki qurumuş quyunun yanında başqa bir "Kəsik baş" qəbrinin olduğu bildirilir (Гордлевский, 1960, стр. 338).

Bundan başqa, Türkmənistan Elmlər Akademiyasının Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunun fondunda müəllifinin XVIII əsr türkmən şairi Avşar Qasım olduğu və başqa bir naməlum şairin "Kəsik baş" poemalarının əlyazma nüsxələri saxlanılır (Aşırov, 1983, s. 33), (Аширов, 1990, стр. 78).

Şairin "Kəsik baş" poemasının əlyazma nüsxəsi hazırda Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunda 318 saylı qovluqda saxlanılır. Bu poemanın da yeganə əlyazma nüsxəsini 1939-cu ildə Övezmırat Bekmıradov adını bildirmədiyi bir şəxsin dilindən yazmışdır. Poemanın mətni ümumi əlyazmanın 7a-15a vərəqlərində yazılıbdır. Cəmi 67 bənd, 268 sətirdir.

Məhtimqulu Fəraqinin dini mövzuda yazıya aldığı poemalarından biri də "Cühud oğlan" ("Cöhit oqlan") adlı poemasıdır. Şairin bu poemasında Məhəmməd Peyğəmbər vəsf olunubdur. Poemada təsvir olunur ki, bir cühud oğlan oturub "Tövrat"ı oxuyurmuş. Onda Məhəmməd Peyğəmbərin adına rast gəlir. Həmin vərəqi kəsib götürür, kitabda İslam peyğəmbərinin adı yenə görünür. Belə bir möcüzəni görən oğlanda Məhəmməd Peyğəmbəri görmək arzusu yaranır. O, bu məqsədlə Mədinəyə gəlir. Orada oğlanı sınamaq üçün Məhəmməd Peyğəmbərin öldüyünü deyirlər. Bu xəbərdən kədərlənən oğlan ölür.

Poemanın əlyazması Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunda 318 saylı qovluqda saxlanılır. O, qovluqdakı ümumi əlyazmanın 15b–20b vərəqlərində yazılıbdır. Cəmi 41 bənd, 164 sətirdən ibarətdir. Əlyazmanın katibi Ovezmırat Bekmıradov adlı müəllimdir və onun tərəfindən 1939-cu ildə adını bildirmədiyi şəxsin dilindən yazılıbdır (Aşırov, 1984, ss. 140-141).

Məhtimqulu Fəraqinin yuxarıda haqqında danışılan poemalarının hamısı dini və dini-fəlsəfi məzmunludur. Bunlardan başqa şairin bu günümüzə ictimai məzmunlu poemaları da gəlib çıxıbdır. Belə poemalardan biri şairin "Marı şah cahan" adlı poemasıdır. Poema Marı şəhərinin keçmişi haqqında rəvayətlər əsasında yazıya alınıbdır (Aşırov, 1983, s. 34).

Poemanın əlyazması Məhtimqulu adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnstitutunda 1123 saylı qovluqda saxlanılır. Bildirildiyinə görə, bu qovluqda saxlanılan əlyazmaları Qılınc Mülliyev adlı bir şəxs 1940-cı illərdə Marı şəhərində Məhtimqulunun bir divanından köçürübdür (Aşırov, 1984, s. 118). Poemanın əlyazması ümumi əlyazmada 1–7-yə qədər vərəqlərin hər iki tərəfində, 8–30-a qədər vərəqlərin isə bir tərəfində yazılıbdır. Latın hərfləri ilə yazılmış əlyazmanın hər vərəqində 42 sətir vardır (Aşırov, 1984, s. 141).

Məhtimqulu Fəraqinin qələminə "Qara yer" adlı poema da məxsusdur. Poema günümüzə qaraqalpaq dilində gəlib çıxıbdır. Bu heç də təsadüfi deyildir. Belə ki, Məhtimqulu türkmənlər arasında olduğu kimi, qaraqalpaq türkləri arasında da sevilərək oxunan məşhur şairlərdən olubdur. Mənbələrdə Məhtimqulunun dəfələrlə Qaraqalpakiyada olduğu, oranın kənd və aullarını gəzdiyi haqqında səhih məlumatlar vardır. Şair "İçində" adlı şeirində qəbri Qaraqalpakiyada olan Hakim ata Süleyman Bakirqan, "Ondadır" adlı şeirində isə Sultan Üveys babanın adlarını çəkir. Bu da şairin vaxtilə həmin müqəddəslərin qəbirlərini ziyarət etdiyini və onlardan mənəvi qidalandığını göstərir (Абаев, 2014,

стр. 107-108), (Турдыбаев, 2014, стр. 108-109).

Dünyanın faniliyi təsvir olunan poemanı 1950-ci ildə qaraqalpaq dilində Rambergen Xojambergenov köçürübdür. Əlyazma cəmi 63 bənndən ibarətdir. Poema mürəbbe formasında yazılıbdır (Aşırov, 1984, ss. 142-143), (Aşırov, 1983, s. 34).

Məhtimqulu Fəraqinin ən çox diqqəti cəlb edən, həcmcə bir o qədər də böyük olmayan "Ötgül, Fəraqi" ("Köç eylə, Fəraqi") adlı poemasıdır. Əsər cəmi 15 bənddən ibarətdir.

Onun qəhrəmanı şairin özüdür. Poemanın əsas ideyası ondan ibarətdir ki, şair Məhtimqulu vətəndaş Məhtimquluya qalan ömrünü xalqına, vətəninə, öz doğma el-obasına bəxş etməyi, onun xoş günlərinə həsr etməyi tapşırır:

*Əlinə alıbsan dünya zinətin,*
*Elinə bəxş eyləyib ötgül, Fəraqi.*

*Pünhan etmə yaxşı-yaman, var zatın,*
*Elinə bəxş eyləyib ötgül, Fəraqi...*

*Yaş töküb gözdən, etmə sən arman,*
*Tərk edib vətəni olma sən rəvan,*
*Mey içib, bəzm edib, et canın qurban,*
*Elinə bəxş eyləyib ötgül, Fəraq.* (Fəraqi, 2014, ss. 452-453)

Özünə məsləhət ruhunda yazılmış poemanı şair çox güman ki, ahıl yaşlarında yazmışdır. Bunu poemanın son bəndindən də görmək olur:

*Məhtimqulu, indi qoca qalıbsan,*
*Yaxşılara hər dəm həmra olubsan,*
*Zəbərdəst ərlərdən fatihə alıbsan,*
*Elinə bəxş eyləyib ötgül, Fəraqi.* (Fəraqi, 2014, s. 454)

"Ötgül, Fəraqi" poemasının fərqləndirici xüsusiyyəti ondakı dərin ideyalılıqdır. Poema doğma yurda, el-obaya qızğın sevgi ilə doludur. Şair qalan ömrünü xalqına xidmət etməkdə və onun gözəl gələcəyi naminə fədakarcasına çalışmaqda görür.

## Nəticə / *Conclusion*

Göründüyü kimi, türkmən xalqının mütəfəkkir sairi Məhtimqulu Fəraqinin yaradıcılığı zəngin və çoxşaxəlidir. Şairin insanı düşündürən, onun idrakına, şüuruna təsir göstərən, ona zövq verən və mənəvi aləmini saflaşdıran lirik şeirləri kimi insanları insanpərvərliyə, humanizmə səsləyən dini, dini-fəlsəfi mövzular əsasında yazılmış epik əsərləri də çox məşhur olmuşdur. Ümumiyyətlə, onun poemaları əhatə etdiyi mövzu və ideya baxımından bir-birinə yaxındır.

Onun epik əsərləri bir daha göstərir ki, mükəmməl təhsil almış Məhtimqulu Fəraqi dövrünün elmlərini dərindən öyrənmiş, xüsusən dini-fəlsəfi əsərlər yazmış və təriqətlərlə də məşğul olmuşdur. Poemalarındakı mövzulardan məlum olur ki, Məhtimqulu Fəraqi "Quran" qissələrini çox gözəl bilməklə yanaşı, Şərqin görkəmli alimlərinin bədii əsərlərini çox mütaliə etmiş, eyni zamanda türk xalqları ədiblərinin əsərlərinə də yaxından bələd olmuş və onlardan yaradıcılıqla bəhrələnmişdir.

Epik əsərlərinin təhlili göstərir ki, Məhtimqulu Fəraqi türkmən ədəbiyyatına yeni nəfəs, yeni məzmun gətirmiş, "Quran" qissələrindən, Şərqdə geniş yayılmış dini əfsanə, rəvayət süjetlərindən geniş istifadə edərək, onları yeni səpkidə, dünyəvi məzmunda öz epik əsərlərində – poemalarında novatorcasına əks etdirmişdir. Məhz buna görə də, böyük şair türk dünyası ədəbiyyatında öz layiqli yerini tutmuşdur.

**Ədəbiyyat / *References***


Andalıp. (1973). *Yusup-Züleyxa. Tankıdı tekst.* Aşgabat.

Aşırov, A. (1983). Maqtımqulınıň poemaları. *Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası)*.

Aşırov, A. (1984). *Maqtımqulınıň qolyazmalarınıň tesviri.* Aşgabat: Ilım.

Aşyrow, A; Mämmetjumaýew , A; Guzuçiýewa, G;. (2013). *Milli Golýazmalar Institutynyň golýazmalarynyň teswiri (türkmen dilindäki golýazmalar).* Aşgabat.

Çarıqulıyeva, A. (1961). Maqtımqulınıň tebiqata sınçılıqı. *Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası)*.

Fəraqi, M. (2014). *Seçilmiş əsərləri.* Bakı: Elm və təhsil.

Gürgenli, A. (1939). Türkmen klassik şaxırı Maqtımqulı Pıraqı. *Sovet edebiyatı*.

Guzyçyýewa, G. (2014). Magtymgulynyň döredijiliginde "Kysasy Rabguzy" eseriniň täsiri. *Köňül gözgüsi*.

*Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb-fars sözlərinin lüğəti. İki cilddə, II cild.* (2005). Bakı: Şərq-Qərb.

Magtymguly. (2013). *Eserler ýygyndysy. İki ciltde, II jilt.* Aşgabat: Ylym.

Maqtımqulı. (1983). *Saylanan eserler. İki tomluk, I tom.* Aşqabat: Türkmenistan.

Məğribi (Təbrizi), Ş. (2009). *Azərbaycan ədəbiyyatı tarixi. Üçüncü cild.* Bakı: Elm.

Meläýewa, N. (2014). Magtymgulynyň döredijiliginde Ýusup ýordumu . *Köňül gözgüsi*.

Nazarov, Q. (1980). *Türki dilli qolyazmaların kataloqu.* Aşgabat.

Osmanlı, İ. (2014, İyun 28). Bakıda böyük türkmən şairi Məhtimqulu Fəraqinin yeni "Divan"ı tapılmışdır. *525-ci qəzet*.

Osmanlı, İ. (2020). Məhtimqulu Fəraqi və Əlişir Nəvai. *Müqayisəli ədəbiyyatşünaslıq*.

Qarrıyev, B. (1975). *Maqtımqulı.* Aşgabat: Ilım.

*Qurani-kərim.* (2010). (Z. Ərəb dilindən tərcümə edənlər: Bünyadov, & V. Məmmədəliyev, Tərc.) Bakı: Cıraq.

Sarıyev, B. (2014). Mahtumkulunun eserlerinde hezreti-Alinin yeri ve onun tipik özellikleri haqqında. *Mahtumkulu anı kitabı*.

Абаев, С. (2014). Бывал ли Махтумкули в Каракалпакистане? *Махтумкули Фраги и общечеловеческие культурные цен¬ности. Материалы Международной научной конференции. 14-16 мая.* Ашгабат: Ылым.

Абилов, А. (1968). Литературные версии легенд о Кисекбаше и поэма Г.Тукая Сенной Базар, или Новый Кесикбаш. *Габдулла Тукай*.

Ахметгалеева, Я. (1979). *Исследование тюркоязычного памятника Кисекбаш китабы.* Москва: Наука.

Аширов, А. (1990). *Туркменские поэмы XVIII века.* Ашхабад: Ылым.

Бертельс, Е. (1965). *Суфизм и суфийская литература.* Москва: Наука.

Гордлевский, В. (1960). *Избранные сочинения, I том. Исторические работы.* Москва: Восточная литература.

Дмитриева, Л. (1980). *Описание тюркских рукописей Института востоковедения. Том. 3.* Москва.

Каррыев, Б. (1972). Махтумкули и Навои. *Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası)*.

Мустаков, Р. (1984). Махтумкули и Навои (о взаимосвязях творчества). *Türkmenistan SSR IA-nıň xabarları (Jemqıetşilik ılımlarıň seriyası)*.

Мустаков, Р. (1987). Сюжет о Юсуфе и Зулейхе и поэзия Махтумкули. *Известия АН Туркменской ССР (Серия общественных наук)*.

Мустаков, Р. (1989). Поэма Махтимкули о голубе и ее версии на Востоке. *Известия АН Туркменской ССР (Серия общественных наук)*.

Пенджиев, М. (2014). Махтумкули в Индии. *Махтумкули Фраги и общечеловеческие культурные ценности. Материалы Междуна¬родной научной конференции. 14-16 мая.* Ашгабат: Ылым.

Скосырев, П. (1945). *Туркменская литература.* Москва: Советский писатель.

Скосырев, П. (1960). *Махтумкули Фраги* . Ашхабад: Туркменское государственное издательство.

Снесарев, Г. (1983). *Хорезмские легенды как источник по истории религиозных культов Средней Азии.* Москва: Наука.

Турдыбаев, К. (2014). *Махтумкули Фраги и общечеловеческие культурные ценности. Материалы Международной научной конференции. 14-16 мая.* Ашгабат: Ылым.

Шагельдыева, О. (2014). Путешествие Махтумкули. *Махтумкули Фраги и общечеловеческие культурные ценности. Материалы Международной научной конференции. 14-16 мая.* Ашгабат: Ылым.

Ярославский, Е. (1959). *Как родятся, живут и умирают боги и богини.* Москва: Советская Россия.

# О ТВОРЧЕСТВЕ ПОЭМЫ МАХТИМКУЛИ ФАРАГИ

**Исмихан Османлы**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: iosmanli59@yahoo.com

**Резюме.** Выдающийся представитель классической туркменской литературы XVIII-XIX веков Махтимкули Фараги является поэтом-философом, снискавшим мировую известность своими лирическими стихотворениями, написанными во многих жанрах восточной литературы. На сегодняшний день известны и его тринадцать поэм. Из-за отсутствия имени поэта в трех поэмах и того, что каждая из них имеет только один рукописный экземпляр, принадлежность их поэту до сих пор не установлена.

В данной статье представлена подробная информация о десяти поэмах, темы которых взяты из турецких и восточных легенд и сказаний, туркмено-турецкого фольклора, произведений известных турецких и восточных поэтов, рассказов из Корана.

**Ключевые слова:** Махтимкули Фараги, классическая литература, поэма, легенда, турецкая и восточная литература